**Respublika.** - 2024.- 6 noyabr. - № 245. - S. 7.

# İnkişaf etmiş ölkələrin iqlim dəyişmələri ilə mübarizəyə dəstəyi vacibdir

**Nəzrin Eldarqızı**

**Bu gün bəşəriyyət qlobal ekoloji təhdidlərlə üz-üzədir: iqlim dəyişmələri, təbiətin amansızcasına məhvi və havanın, suyun, torpağın çirkləndirilməsi. Bu üç əsas böhran təkcə ekosistemlərə yox, bütün dünyada insan sağlamlığına, sosial rifaha və iqtisadi inkişafa ciddi təsir göstərir. Hər gün qlobal istiləşmə ilə artan ekstremal hava hadisələri, azalan təbii ehtiyatlar və çirklənmənin yaratdığı dağıdıcı nəticələr bizi bir daha xəbərdar edir ki, ekologiya böhranı artıq gələcəyin problemi deyil və indi baş verir. Bu kontekstdə dünya dövlətləri iqlim dəyişmələri ilə mübarizə yollarını müzakirə etmək, təbiəti qorumaq üçün yeni məqsədlər müəyyənləşdirmək və "yaşıl enerji"yə keçid prosesini daha qətiyyətli şəkildə dəstəkləmək üçün noyabrın 11-də Bakıda bir araya gələcək. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransı (COP29) çərçivəsində bəşəriyyətin iqlim böhranını aradan qaldırmaq üçün birgə fəaliyyətinin yeni yol xəritəsi müəyyən ediləcək.**

COP29-un önəmi böyükdür, çünki bu tədbirdə qəbul ediləcək qərarlar Kioto Protokolu və Paris İqlim Sazişi kimi beynəlxalq sənədlərdən daha iddialı və təsirli addımlar atılmasına töhfə verə bilər. Xatırladaq ki, 1997-ci ildə qəbul olunan Kioto Protokolu könüllü öhdəliklər əsasında istixana qazlarının tullantılarını azaltmağı qarşıya məqsəd qoymuş, lakin bəzi öhdəliklər yalnız kağız üzərində qalmışdır. 2015-ci ildə COP21 sammitində qəbul edilən Paris İqlim Sazişi qlobal orta temperaturun artımını 2 dərəcə məhdudlaşdırmağı və mümkün olduqda bu göstəricini 1,5 dərəcə həddində saxlamağı hədəfləsə də, bu məqsədə çatmaq üçün kifayət qədər real addımlar atılmamışdır. Bu məsələlərin fonunda COP29 sammiti icra olunmamış öhdəliklərin yenidən nəzərdən keçirilməsi və mövcud mexanizmlərin təkmilləşdirilməsi üçün bir fürsət yaradacaq.

COP29, həmçinin maliyyə məsələlərini də gündəmə gətirəcək. Bu sahədə keçmişdə bir çox vədlər verilib, lakin icraata gəldikdə ciddi çatışmazlıqlar ortaya çıxıb. Məsələn, 2009-cu ildə Kopenhagendə keçirilən COP15 zamanı ABŞ dövlət katibi Hillari Klinton inkişaf etməkdə olan ölkələrə iqlim adaptasiyası üçün hər il 100 milyard dollar ayırmağı vəd etsə də, bu maliyyə hədəfinə yalnız 2023-cü ildə çatmaq mümkün olub. Bu kimi problemlər onu göstərir ki, qlobal miqyasda iqlim böhranına adekvat cavab verilməsi üçün daha güclü və icrası təmin olunmuş öhdəliklər zəruridir. Bakıda keçiriləcək COP29 sammiti iqlim dəyişmələri ilə mübarizədə yeni və daha iddialı hədəflər təyin etməklə bəşəriyyətin üzləşdiyi bu qlobal fəlakətlərin qarşısını almağa yönəlmiş qətiyyətli addımlara səhnə olmalıdır. Hər bir dövlətin üzərinə düşən məsuliyyəti yerinə yetirməsi bəşəriyyətin gələcəyi üçün həlledici olacaq. COP29-dan sonra dünya iqlim məsələlərində yalnız niyyətlərlə deyil, real addımlarla irəliləməyi bacarmalıdır.

## Böhranın yükü kimlərin çiyinlərindədir?

İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin (IPCC) son hesabatında iqlim böhranının ciddi maliyyə vəsaiti tələb edən bir təhdid olduğu bir daha öz təsdiqini tapır. İqlim dəyişmələrinə qarşı mübarizə yalnız bəyanatlarla deyil, konkret maliyyə resursları ilə dəstəklənməlidir. Panelin araşdırmalarına əsasən, inkişaf etməkdə olan ölkələrə qoyulan iqlim sərmayələri 2030-cu ilə qədər 4-8 dəfə artırılmalı və hər il təqribən 2-3 trilyon dollara çatmalıdır. Eyni zamanda BMT-nin açıqlamasında qeyd edilir ki, həmin ölkələrə iqlim adaptasiyası və "yaşıl enerji"yə keçid üçün 2030-cu ilə qədər 6 trilyon dollar lazımdır. Bu miqyasda maliyyə dəstəyi olmadan iqlim böhranının ağır nəticələrini zəif ölkələr öz çiyinlərində daşımaq məcburiyyətində qalacaq. Amma burada ədalətsiz bir mənzərə ortaya çıxır. Sənaye inqilabından bəri qlobal istiləşmə və iqlim dəyişmələrinin əsas səbəbkarları inkişaf etmiş ölkələr olsa da, bu dövlətlər zərər çəkmiş ölkələrlə məsuliyyəti bərabər paylaşmaqdan çəkinirlər. Həqiqət budur ki, inkişaf etmiş dövlətlərdə yaşayan insanlar az inkişaf etmiş ölkələrdəki insanlardan təxminən 6 dəfə daha çox təbii ehtiyatlardan istifadə edir və iqlimə 10 dəfə artıq zərər vururlar. Belə olduqda isə sənaye inqilabının gətirdiyi çirklənməni əsasən inkişaf etmiş ölkələr yaradıbsa, iqlim dəyişmələri ilə bağlı yükü də məhz onların daha çox daşıması məntiqli olmazmı? Hazırda inkişaf etmiş ölkələr iqlim dəyişmələrinə qarşı mübarizədə bərabər öhdəlikləri tələb edir. Halbuki sənaye infrastrukturu olmayan və təbii resurslardan minimal şəkildə istifadə edən dövlətlər bu məsuliyyəti bərabər şəkildə bölüşməməlidir. İnkişaf etməmiş və ya sənayeləşməmiş ölkələrdən iqlim böhranının həllinə eyni həcmdə maliyyə dəstəyi tələb etmək həm iqtisadi, həm də ekoloji baxımdan haqsız

bir yanaşmadır. Dünyanın hər yerində eyni prinsip keçərli olmalıdır, yəni kim daha çox çirkləndiribsə, təmizləmə yükünü də daha çox çəkməlidir. İqlim dəyişmələrinə qarşı mübarizədə inkişaf etmiş ölkələr həm tarixi, həm də iqtisadi məsuliyyətlərini dərk etməli və iqlim böhranının təsirlərini azaltmaq üçün digər dövlətlərlə daha ədalətli bir dəstək mexanizmi yaratmalıdırlar.

## Məsuliyyətdən boyun qaçıran "nəhənglər"

Bu gün qlobal ekoloji böhranla üzləşən dünyada bəzi inkişaf etmiş ölkələr məsuliyyətdən yayınırlar. Bunun nümunələrindən biri COP29 sammitinə qatılmaqdan imtina edən Norveçdir. Norveç qlobal miqyasda ən böyük neft və qaz hasilatçılarından biridir. Ekosistemə vurduğu ziyan nəticəsində milyardlarla vəsait qazanmasına baxmayaraq, iqlim dəyişmələri ilə mübarizəyə və təmiz enerji keçidinə maliyyə dəstəyi göstərməyə meyilli deyil. Maraqlıdır, Norveç və digər sənaye nəhəngləri niyə iqlim dəyişmələri ilə bağlı real addımlar atmaqdan çəkinir, bu mübarizədə maliyyə ödəmək istəmirlər? Halbuki sənaye inqilabında aktiv iştirak edən bu ölkələr planetin ekoloji tarazlığını pozmaqda əsas rol oynamış, təbii sərvətləri məsuliyyətsizcə istismar etmiş və atmosferi tullantılarla yükləmişlər. Onlar neft və qaz sənayesindən milyardlarla gəlir əldə etsələr də, iqlim dəyişmələrinin təsirlərini azaltmaq və dünya iqlimini təmizləmək üçün tələb olunan vəsaiti ödəməkdən imtina edirlər.

Xüsusi vurğulamaq lazımdır ki, bu cür yanaşma yalnız COP29-a xarakterik deyil. 2023-cü ildə Dubayda keçirilən COP28 sammitində də oxşar hadisələr yaşandı. Sammitdə qazıntı yanacağından mərhələli şəkildə imtina etmək üçün 2050-ci ilədək razılaşma əldə olunmuşdu, amma bu razılaşma, təəssüf ki reallığa yaxın görünmür. Çünki qlobal temperatur artımını XXI əsrin sonuna qədər 1,5 dərəcədən aşağı saxlamaq üçün tələb olunan konkret tədbirlər planı ortaya qoyulmadı. İqlim dəyişmələrinin fəsadlarından ən çox əziyyət çəkən Afrika, Karib hövzəsi və Cənubi Amerika kimi regionlara iqlim adaptasiyası üçün konkret dəstək mexanizmləri haqqında bir söz deyilmədi. Bu, zəif ölkələrdə ciddi məyusluğa səbəb oldu və iqlim razılaşmalarının yetərsiz olduğunu bir daha göstərdi. Əvvəlki COP sammitlərindəki uğursuz təcrübələri və yerinə yetirilməyən vədləri nəzərə alaraq rəsmi Bakı COP29-a çox ciddi hazırlıq işləri görüb. Azərbaycan həm regional, həm də qlobal səviyyədə müxtəlif maraqları diqqətdə saxlamaqla münaqişəsiz və konsensus əsaslı yanaşmalar hazırlamağa çalışır. Rəsmi Bakı cəsarətli təşəbbüslərlə çıxış edərək dünyanın üzləşdiyi ekoloji problemlərin real həll yollarını təklif etməyi qarşısına məqsəd qoyub.

## İqlim mübarizəsində sözlərdən təsirli əməllərə

Bakıda keçiriləcək COP29 sammiti qlobal iqlim gündəliyinə real töhfə verəcək strateji layihələr və maliyyə mexanizmləri ilə digərlərindən fərqlənir. Sammit çərçivəsində təqdim olunacaq iki əsas təşəbbüs - İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondu (CFAF) və İqlim Maliyyəsi, İnvestisiya və Ticarət üzrə Bakı Təşəbbüsü (BICFIT) yalnız bəyanatlarla deyil, konkret və praktiki tədbirlərlə iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə mühüm addımlar atılmasına şərait yaradacaq. CFAF qazıntı yanacağı hasil edən ölkələrin və şirkətlərin könüllü ianələri ilə maliyyələşəcək və iqlim dəyişmələrinin fəsadlarından əziyyət çəkən, xüsusilə də inkişaf etməkdə olan dövlətlər üçün güclü maliyyə dəstəyi təmin edəcək. Fondun əsas məqsədi təbii fəlakətlərin nəticələrini tez bir zamanda aradan qaldırmaq, bu ölkələrə zəruri yardımı daha sürətli və güzəştli şərtlərlə çatdırmaqdır. Bu, həm inkişaf etmiş ölkələrə, həm də iqlim böhranının yükünü daşıyanlara planetin iqlim tarazlığını qorumaq üçün öz üzərlərinə düşən məsuliyyətin nə dərəcədə böyük olduğunu xatırladacaq. BICFIT isə "yaşıl enerji"yə keçid üçün yeni sərmayə platforması rolunu oynayacaq və investisiya imkanlarını genişləndirəcək. Bu təşəbbüs özəl sektorun maliyyə mənbələrinin iqlim mübarizəsinə cəlb olunması və inkişaf etməkdə olan ölkələrə güzəştli maliyyə dəstəyi təqdim edilməsi üçün qlobal səviyyədə müsbət nümunədir. Rəsmi Bakı bu addımlarla dövlətlər, beynəlxalq təşkilatlar və özəl sektoru vahid bir məqsəd ətrafında birləşdirməklə iqlim maliyyələşməsində yeni yanaşmaların öncülü olmaq istəyir. COP29-da Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında iqlim məsələlərində geniş spektrli konsensus əldə olunmasını qarşıya məqsəd qoyub. Bu konsensusun əsasında Paris İqlim Sazişinin təməl prinsiplərini daha da irəli aparan aydın və təsirli tədbirlərin görülməsi dayanır. Ölkəmiz Bakıda keçirilən iqlim sammitinin tarixi bir məqama çevrilməsi üçün yeni maliyyə hədəflərinin müəyyənləşdirilməsinə və onların yekun bəyannamədə əksini tapmasına səy göstərir. Bu hədəflər yalnız milli səviyyədə deyil, həm də qlobal miqyasda iqlim dəyişmələrinə qarşı mübarizənin səmərəliliyini artıracaq. Azərbaycanın təşəbbüsləri iqlim dəyişmələri və təbii fəlakətlərin təsirlərini daha tez aradan qaldırmaq məqsədilə qlobal ictimaiyyəti qətiyyətli addımlar atmağa təşviq edir. Bu sammit iqlim böhranına qarşı qlobal mübarizədə real tədbirlərlə bir dönüş nöqtəsi olacaq.